# Ailədaxili münaqişələr, sosial problemlər üzərində oyun qurmaq, tamaşalar düzəltmək yaxşı bir hal deyil

**Gender ictimai həyatın siyasi, iqtisadi, mədəni və digər sahələrində kişi və qadın münasibətlərinin sosial cəhəti kimi başa düşülür. Gender bərabərliyi isə qadın və kişilərin hüquq bərabərliyi, bu hüquqların həyata keçirilməsi üçün bərabər imkanlar, onların cəmiyyətdə bərabər sosial vəziyyəti deməkdir. Müasir dünyada gender problemi və gender bərabərliyinin təmin olunması dünyanın bir çox ölkələrində aktual problemlər sırasında özünə yer alıb. Azərbaycan da beynəlxalq tələblərə cavab verən gender siyasəti həyata keçirməkdədir.**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Layihə çərçivəsində**

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin dəstəyilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti üzrə layihə çərçivəsində hazırlanıb.**

Ölkəmizdə gender və ailə məsələləri son illərdə əhəmiyyətli dəyişikliklərə uğrayıb. Dövlət gender bərabərliyini təşviq edən bir çox qanun və proqramlar qəbul edərək qadınların cəmiyyətdə daha fəal rol almasına imkan yaradıb. Görülən tədbirlər qadınların təhsil, iş həyatı və siyasətdə iştirakını artırmağa yönəlib. Eyni zamanda qadınlara qarşı zorakılıqla mübarizə aparan proqram və qanunlar da tətbiq olunaraq, cəmiyyətdə bu məsələyə daha çox diqqət ayrılıb.

**Media da ailədaxili münasibətlərə, gender bərabərliyinin təbliğində və cinsi ayrı-seçkilik hallarının qarşısının alınmasında təsirli və güclü bir vasitədir. Müstəqil jurnalist Elman Cəfərli də mətbuatın bu məsələdə rolunun böyük olduğunu qeyd edir. Lakin mediada bəzən bu kimi məsələlərə həssaslıqla yanaşılmadığını deyir:**

"Son vaxtlar cəmiyyətdə ailədaxili narazılıqlar, hətta ölümlə nəticələnən münaqişələr artıb. Boşanmaların sayının çoxalması narahatlıq doğurur. Təbii ki, bunun müxtəlif səbəbləri var. Sosial-iqtisadi vəziyyətdən tutmuş insanların mənəvi-psixoloji durumuna qədər çoxlu səbəblər var. Lakin kənar təsirlər də yox deyil. Sanki bir qüvvə dayanmadan Azərbaycan ailə modelini, ağsaqqallıq, ağbirçəklik institutunu dağıtmağa hesablanmış şər layihələri həyata keçirir. İndi qəzetlər oxunmur və ictimai rəyə təsir qüvvəsini itirib. Lakin 90-larda qəzetlərin gördüyü işi indi saytlar, xəbər portalları həyata keçirir. Oxucu cəlb etmək üçün biləRəkdən çığırqan başlıqlar seçilir. Bu bir qaydadır: nə gizlindirsə, ona maraq çox olur. Məhrəm məsələlər daim diqqət mərkəzinə düşə bilir. Ailədaxili münaqişələr də bu kateqoriyadandır. Azərbaycan insanı bu kimi məsələlərə daha çox maraq göstərir".

**Elman Cəfərli bəzi televiziya kanallarının bu məsələdə mövqeyinə tənqidi yanaşdığını deyir:**

"Çox təəssüf ki, bəzi televiziya kanallarında sanki bir yarış gedir: kim daha çox ailədaxili münaqişələri gündəmə gətirəcək. Bu verilişlər reytinq gətirir. Reytinq isə reklamdır, gəlir mənbəyidir. Amma bir şeyi nəzər almaq lazımdır ki, ailədaxili münaqişələr, sosial problemlər üzərində oyun qurmaq, tamaşalar düzəltmək yaxşı bir hal deyil. Türklər demiş, ayıb işin zövqü gedər, utancı qalar. İllər keçsin, bu cür hərəkətlər çox qınanacaq. Milli mentalitetimizə uyğun olmayan "Qəfəs" TV layihəsini xatırlayırsız? Qısa yayımdan sonra efirdən yığışdırıldı. Amma hələ də mənfi mənada xatırlanır. Pul qazanmaq hər kəsin haqqıdır. Lakin bu, toplumun maraqlarına zidd formada olmamalıdır. Bu dediyim saytlara, xəbər portallarına da aiddir. Əvvəla, Azərbaycan Respublikasının Media haqqında qanununun 14-cü maddəsində mediada dərc olunan və yayımlanan informasiyaya tələblər nəzərdə tutulub. Bu tələblər arasında şəxsi və ailə həyatına aid sirrlərin mühafizəsi, "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunun müddəalarına əməl olunması kimi vacib məsələlər yer alır. Peşə etikası normaları da onu tələb edir ki, media ictimai əxlaqa, mənəvi dəyərlərə zərər gətirən informasiyanı yaymasın".

**Elman Cəfərli bu məsələnin medianın peşəkarlıq səviyyəsi ilə birbaşa bağlı olduğunu hesab edir:**

"Çox təəssüf ki, mətbuatda düzgün ailə obrazının yaradılmasında əsas problem qeyri-peşəkarlıqdır. Bəzən mediaya təsadüfən gəlmiş, mütaliəsi, dünyagörüşü olmayan "yazar" işlədiyi KİV-in də, bütövlükdə medianın da baş bəlasına çevrilir. 5-6 il bundan qabaq işlədiyim media orqanında bir yazar var idi. Qaşınmayan yerdən qan çıxarmağa meylli idi. Xüsusən təhsil sahəsində neqativləri qeydə alır, xəbər hazırlayırdı. Görürdüm ki, bunun fəaliyyəti çox zaman tədris prosesinə, pedaqoqların işinə mane olurdu. Çağırıb onu dedim ki, sən daha çox oxunmaq üçün xəbər hazırlayırsan, bu, yaxşı haldır. Amma sənin, bizim redaksiyanın marağından da irəlidə bir maraq da var: toplumun marağı. Bu cür xəbərlər tədris prosesinə mane olur, hamımızın övladlarımız təhsil alan məktəbi gözdən salır. Bu baxımdan təcrübəli redaktorlar qeyri-peşəkarlarla işləməli, onların yanlış yola sapmasının qarşısını almalıdırlar".

**Elman Cəfərli ümumi yanaşılarkən vəziyyətin o qədər də faciəvi olmadığını da vurğuladı. Media nümayəndəsi olaraq müsbət irəliləyişlərə də diqqət çəkdi:**

"Məsələn, son illər televiziya verilişlərində keyfiyyət dəyişikliyi hiss edilməyə başlanıb. Bir zamanlar, xüsusən 90-cı illərdə ailədaxili münaqişələri tətikləyən xarici televiziya serialları var idi. İndi o cür seriallar efirlərdən yığışdırılıb. Bu məsələdə Azərbaycan Respublikası Audiovizual Şuranın gördüyü işlər təqdirəlayiqdir. Lakin görüləsi işlər hələ çoxdur. Ailə dramları üzərindən reytinq yığan, gənc nəslin tərbiyəsinə, orta yaşlı insanların psixologiyasına, bütövlükdə cəmiyyətə mənfi təsir göstərən, Azərbaycan ailə institutunu zədələyən verilişlər barədə də ölçü götürülməlidir. Sadə insanları efirə çıxarıb ailə problemlərini müzakirə edirlər. Yetərincə savadı, dünyagörüşü olmayan insanları anlamaq mümkündür. Amma unutmayaq ki, medianın əsas missiyasından biri də cəmiyyətin səviyyəsini qaldırmaqdır, onun səviyyəsinə enmək deyil".

**Sosioloq Lalə Mehralının fikrincə, cinsi ayrı-seçkilik məsələləri gündəmə gəldiyi vaxtdan, yəni mediada qadınların hüquqları müdafiə edilməyə və kişilər amansız və anlayışsız biri kimi tanıdılmağa başladığı vaxtdan ailədaxili münaqişələr artmağa başladı:**

"Bu məsələlər qabardılmağa başlanan dövrdən ailədaxili qətllər, boşanmalar artdı. Biz 25-30 il əvvəl bugünkü Azərbaycan ailəsində baş verən belə halları esitsəydik, çox dəhşətlə qarşılardıq. Fikirləşərdik ki, bu hal cəmiyyət üçün xarakterik vəziyyət deyil. Amma bu gün bunun tam əksini görürük. Azərbaycanda gender bərabərliyi deyə-deyə, feminizm hərakatı altında qadın-kişi hüquqlarının bərabərliyi devizi adı altında ciddi formada defarmasiyalar yaranıb. Ailə institutunun təməli elə qadın-kişi bərabərliyi məsələləri gündəmə gələndən dağıldı".

**Sosioloq qeyd edir ki, hüquqi baxımdan yanaşsaq, qadın və kişi vətəndaş olaraq bərabərdir, hər ikisi eyni hüquqlara malikdir:**

"Dövlətin nəzərində vətəndaş olaraq eyni hüququ daşıyırlar. Dövlət bu mənim qadın vətəndaşımdır, bu mənim kişi vətəndaşımdır deyə onları ayırmır. Hər ikisinə eyni hüququ tanıyır. Lakin ailə institutunda, cəmiyyətdə mənəvi dəyərlər istiqamətindən



baxanda qadınla kişinin yeri fərqlidir. Bu yöndən yanaşsaq, biz deyə bilmərik ki, Azərbaycanda qadın və kişi hüquqları bərabərdir. Ailə dəyərləri baxımından onlar bərabər səviyyəyə malik deyillər. Hər ikisinin hüquqları mənəvi sosial baxımdan fərqlidir. Və hər ikisi mental dəyərlərə uyğun olaraq öz yerlərini mühafizə etmək üçün davranırlar. Qadın cəmiyyətdə bir kişi kimi davrana bilməz. Eləcə də bu, kişilərə də aiddir. Hər ikisinin cinsinə xarakterik xüsusiyyətlər var ki, bunu daşımalıdırlar".

**Lalə Mehralı bəzi vaxtlarda ayrı-seçkilik hallarının baş verdiyini və bununla bağlı tədbirlərin görüldüyünü də vurğuladı. Sosioloq təəssüflə bəzən kişilərin hüquqlarının pozulması hallarının da baş verdiyinə diqqət çəkdi:**

"Bəzi hallarda kişilərin də hüquqları pozulur və nədənsə qadın hüquqlarının qorunmasında çox həssas olan insanlar, cəmiyyət, mətbuat kişi hüquqlarının müdafiəsi baxımından o qədər də canfəşanlıq etmirlər. Bu kimi hallar ölkəmizdə də baş verir. Kişilər də zorakılığa məruz qalır. Kisilər də iş yerlərində bulinqlə üzləşə bilirlər. Bu yalnız qadınlara xas vəziyyət deyil. Odur ki, balansı qorumaq, o tərəzinin taraz dayanmasına səbəb olmaq hər iki cinsin haqqını və hüququnu bərabər ölçülərdə paylamaq deməkdir. Biz bir tərəfi tərəzidə ağırlaşdırıb, digər tərəfi yüngünləşdirməklə ancaq balansı pozmuş oluruq".

*Elnurə İSAXAN*